*ULU TANRININ ADI İLƏ*

# *BƏLKƏDƏ BU SON SIĞARA ALIŞDIQ*




*TAHİR SAHİBİ MƏTƏNƏQ TƏBRİZİ*

**PƏKƏR**

# İÇİNDƏKİLƏR

**1.ARARSAN BƏNİ**
**2.BƏLKƏDƏ BU SON SIĞARA ALIŞDIQ**
**3.ÜRƏGİMDƏKİ SEVGİ YALANİMİŞ**
**4.NƏDƏN BƏNİ BU SÜMSÜK ADAMLARLA İNANDIN**
**5.YAĞMURLU GÖZLƏRİM**
**6.GÜLÜŞÜM İTƏNDƏ SƏNİ İNAMDIM**
**7.ILDIRIMLAR BAĞRIMI DƏLİR**
**8.UŞAQLIQ**
**9.KÖNLÜM,TƏK UMUDUM**
**10.QARANLIQ**
**11.UCA DAĞLAR**
**12.BURDA BİR MƏCNUN YAŞIYIR**
**13.VƏTƏNİN KÖLGƏSİNƏ**
**14.QARANLIQ GECƏLƏR**
**15.ZAHİD QURTAR ZÜHDÜ**
**16. ODA GETDİ**
**17.OD VURUB BİR SIĞARA YANDIRARSIZ ÜRƏGİM**
**18.EY VAY Kİ SAĞKƏN QAPIMIZ HİÇ DÖYÜLMÜR**
**19.SİMİT SUTUNLAR DA SÖKÜLƏRMİŞ**
**20.BU IŞIQ ÇOPU DƏ BƏNİM AĞZIMDA ÇOX GÖR!**
**21.ƏCƏLDƏN,BİRCƏ GÜLÜŞÜVƏ MÖHLƏT ALMIŞAM**
**22.BU CƏHƏNNƏMDƏN GƏLİBDİ!**

**ARARSAN BƏNİ**

Bir gün bəni ararsan,
Görərsən bəni;
Qara buludların incində
Yağışların damcısında

Inanarsan ayaqlarıvın rəddini
Könlümün dağında

Silərsən sırrımım tozunu
Geçdigim yollardan

Bir gün bəni ararsan,
Görərsən saralan yarpaqlarla
Bilərsən bəni,bağlanmayan yaralarla

Eşidərsən bənim dinməz könlümün səsini,
Ildırımların harayında

Gızlətdığım göz yağmurların
Taparsan dənizləri boğan dalğalarla
Ararsan bəni,ararsan kül olmuş arzılarla

Mənlikdə gülduğun sözlərimə
Ağlarsan dərindən,
Ağlarsan bənim yoxluqumda

Inanarsan bəni
Məktubların arasında

**BƏLKƏDƏ BU SON SIĞARA ALIŞDIQ**

Gəlin birdə dosluqla barışaq
Bu son günlərdə,yenə bir sığara alışaq
Uçaq burdan,uçaq,buludlarla qarışaq
Qurulmuş gözlər vərindən ağırdan bir yağaq

-bir sönük vulkanam qardaş
Bu cızha-cız qalan közümün geçdigidir
Göz yağmurlarımla bağlaşıb
Onu söndürə-söndürə,bəni yandırır
Ürəgimin yağını əridir,
Canımı alır,
Alır və ...
Bəni qurtarır-

Gəlin bu son dəfə birlikdə
Bəlkədə bu son sığara alışdıq

## ÜRƏGİMDƏKİ SEVGİ YALANİMİŞ

Bu qart insanlardan ürəgim vurub
Qəlb insanlar
Duyğusuz,

Qayğım bu donan qanlar içün imiş,
Vədə qurulmuş gözlərə
Bu yalan qımşıqları da üzümdən qoparırlar

Inamdıranmadım,ön gülüşüvə dayanmışam
Gözlənilən istəkim ,vədə
Ürəgimdəki sevgi yalanimiş
Gülüşündə,
Tanışlığımızla birlikdə,

Nə bilirdim!
Bəlkədə yaşamağımda yalanimiş

**NƏDƏN BƏNİ BU SÜMSÜK ADAMLARLA İNANDIN**

Hançı suça bəni inandırdın,
Kim,bir baxışa yandırdın ürəgimi

Qarşında istəkimi bu qan könlümdə boğdum
Yoxluqunda coşğun,yağmurlarımla boğuldum
Çənsiz – dumansız ,susqun doldum
Nə dən bəni bu sümsük adamlarla inandın!

Sənlə,yalandan – doğrudan dilimə caymır
Telsiz sözlərim,titrəyən ürəgimdən calanır
Üzündən dönməgimi nə dən bildin?
Nədən bəni bu sümsük adamlarla inandın!

## YAĞMURLU GÖZLƏRİM

Yağmurlu gözlərim...
Ürəgimi sana göstərir

Istəkim dilimə caymır
Köksədən od qoparır
Dilimdəki sözlərə alışır

Nədən gözlərin yalan sözləri inamdı
Vədə yağmurlu gözlərimi danır!

Bir çara tapıntı olmadı yaralanmış könlümə
Bir insan
Bir baxiş
Bətin vədə gözlərin döndərsin
Bu bulanıq vitrindən bir bəri

Nədən gözlərin vitrin dalında bürüncü inamdı
Ama gözüm doğan almazları danır

## GÜLÜŞÜM İTƏNDƏ SƏNİ İNAMDIM

Gülüşüm itəndə səni inamdım
Dosluqlar bozaranda yollar uzanır
Bir insan tapılmaz dosluqu ona göndərim
Gülən gözlər görünməz
Quru gözlərdə,baxışlara,inanma dost

Bu dumanlıq və tüstüluq aramızdan çəkılməz oldu
Denə olsun,çəkilməsin aramızdan!
Yorulmuşam,yorulmuşam
Sənsizligi aramaqdan

Yağışlar sayğısına dayanmışam
inanma dost,inanmışam,
Soyuq üzdə baxışları

## ILDIRIMLAR BAĞRIMI DƏLİR

Dürlü dürlü insanlardan gözlərin nə istir

Baxişları,duyğuları

Heç sanmıyamda
Duyğusuzluq sancilir könülə

İstəklərim qısalar ıslaq gözlərde
Duman qarlı dağlardan
Yolları, qırovları
Heç züyməsəmdə qiçlarımı titrədər
Üşümaqlar,dumanlıqlar

Heç açilmaqda deyil qara buludlarim
Gözlərimi siğmasada
Ildırımlar bağrımı dəlir.

**UŞAQLIQ**

Uşaqlıq...
Səni arz etdım
Mən olum birdə həman,birdə həman gün
Qane oldum beşikə,qane oldum süd içün

O xiyaldan özümə qəsr ayırırdım
O günün istisi ilə mən can alırdım

Səni arz etdım
Hər nə istərmişidim zehnilə bir tez yaradırdım

Həvəsim bir quru yarpaq
Istəmir bir daha könlüm,
Xoş ola hamı dərindən,hamı insanlar içün

Indi insanlar olur qəsrimə pillə,
Bəndə çıxarkən
Onların qanları olmuş süd içün,
Bəndə içərkən

Səni arz etdım
Küsmüşəm könlüm ilə,olda vururkən
Vurmamış bir səsi boğdum içərimdə
Sən küsüb,barışarsan
Buludlarla qarışarsan
Qarışan kən
Inci hasrət bu bulurdan görnə sellər tökülürlər

Uşaqlıq, nə içün bir quru çop tək anadan sən süd əmərsən
Ana can verdikcə onun canın içərsən
Sən gül aşdıqca o solarmış
Sən yıxıldıqca,onun rəngi atarmış
Nə içün nənəcan səsləyib əmma səndə küsərsən
Sən bilərsən,
Nədən oldum ***pəkər***,ama səndə gülərsən

Nə günüzlər ki güdürdüm ücalam
Yetirəm sərvicən andan bac alam
Oturub damda birdə o ulduzları sayaydım
Gecə qısalankən günəşin qanlı dodaqından kam alaydım
Dağların gül açanda
Məndə könlümün dərdin açaydım

**KÖNLÜM,TƏK UMUDUM**

Buludların incındə gördüm
Yağışların işarəsində
Yıldızlar sayı sevildim

Yalnız dodaqlar kimi yumulanda
Mən solanda,sən incidin

Sənsən qaranlıqda dayağım
Küləklərdə köynəgim
Doslar boşluyanda,həmdəmim
Könlüm,könlüm...
Tək umudum

Yaraların yorğun
Ümidlərin nə dərin

Dənizlərcə yerin var
Sınıq gəmilərə yel gibi
Sevdiyimə məhrəm-yar
Cənnətlərin köprüsü

Sənsən yağışlarda pənahım
Yuxularda oyağım
Yola gəl birdə
Çətinlikdə ayaq ol

Səni yıldızların dalında gördüm
Dənizlərin altında

Könlüm,könlüm
Sevilən gün dayaq ol

**QARANLIQ**

Qaranlıq
Qara kölgəm kimi səndən nələr andıq
Sən sönən dəm sənə yandıq
Nə verirmi nələr aldıq?

Qaranlıq heç bilirdin sən gələnkən kölgəmiz itdi
Könlümüz həsrətlə bitdi
Sən sönən dəm
Birdə yandım
Nə verirmi,nələr aldım!?

**UCA DAĞLAR**

Uca dağlar
Mərtə”i yüksək,başı qan
Bəzənibsən nə hünərli
Uymuşam dəlilər tək
Geri bir insan olaydım
Ya da bir yüngül ayaq guş...

Yeridikcə geri dönməm
Yel gələrkən
Yurdumun nəğməsini bağrıma salarkən

Ama heç geri dönməm
Söyuq üzdən üz qopardım
Uca dağlar sənə döndüm

## BURDA BİR MƏCNUN YAŞIYIR

Burda bir məcnun yaşıyır...
Sevgili,calanan ğəmləridir
Qonağı döyülən qəlbi

Səqfi göğdür
Altı bom-boş
Taxçada bir camı vardı bulurdan
Deyəsən arzılar camıdır

Bir həyət varmı
Bircə kərdi
Becədir onda doğulan ğəmlərini
Içidir qanla acımıq otlarını
Yekəlib qol budaq artır
Bürünür qəlbinə artıq

Burda bir məcnun yaşıyır...
Qarışır dağda buludlarla
Gah dolur gah açılır
Ağlıyır
Əridir qar çiçəgin
Danışır sizlər içün
Mavi göğdən
Gözümüzdən itən günlərdən

Sözü vardı hələ də
Tutulan sinələrdən
Tökünən sərvi kühəndən

Baş açıb lalələrim,ürəgin dəştinə bir bax
Səf çəkiblər necə bir ləşkəri çəngizi müğül tək

Yügürürlər üzümə
Könlümün şəhrinə bir bax
Dağıdıb ğarət ediblər
Başdaki qan süpərlər sözə isbati yəqindir

Ey səd əfsus içitdim neçə illər bu çəmən dəştini qanla
Gülü kim hiç,taxıldı könlümə xar
Yuxusuz gər necə çəkdim baği gül mihnətini
Bilməzidim becədirdim canımım afətini

Burda bir məcnun yaşıyır...
Sevgili calanan ğəmləridir
Qonağı döyülən qəlbi

Səqfi göğdür
Altı bom-boş

Dəriri sinəsindən
Taxilan xarü xəs əlbət
Yığır ol taxçiyə bir-bir
Parçalanmış arzılar camına

## VƏTƏNİN KÖLGƏSİNƏ

Sığılır xatirələr qəlbimin hər çalışinən
Calanır dalğalarım ömrümün sahilinə
Ğəmimin sahili yox
Güdürəm hələ də arzılar gəmisin

Gəlirim tə”ni zəbandur
Yedigim tiri məlamət
Içdigim bir kasa qandur
Çıxadırlar deyəsən əslimin köynəgini

Cismimin bəndi kəsilmiş
Könlümün şəhri uçulmuş
Tutqun buludlarla gizlədirlər günəşi
Dağıdırlar önümü
Quyluyurlar dünümü

Qəlbimin ərşəsi gömgöy
Hissimin şo”ləsi gor
Dilimin xəncəri kəskin
Sürürəm qorxusuz,
Vətənin kölgəsinə

Amma bir söz,
Incimən heç bu qəfəsdən
Inanan yox
Dünyanın işi döngələməkdir

Dolanır ruhum cismimin zindanina
Vırnıxır bir yol aça
Vətənin kölgəsinə

## QARANLIQ GECƏLƏR

Hələ aydındı mənə o qaranlıq gecələr
Bir həyət,bir ağac,birdə hovuz
Genə gizlətdi hovuz ay parasın ürəgində
Yuyur öz gözlərini,ay hovuzda
Nə görürsən?bir ovuc qan,
Quru yarpaqları çırpır yel özündə
Caladır xatirələrlə
Oda çırpır ürəgimdə

Hələ aydındı mənə
Gözünün əksi düşübdür hovuza
Boğulur su nəm gözündə
Nə görürsən?bir ömür ğəm,

Dayağımdır bir ağac
Həvəsim bir quru çop
Sayıram boğulan ulduzlari
Yada heç ömrümün güçdigini

Sataşır yel başıma
Dağıdır tüklərimi
Olub ol deyəsən oynaq ona!

Hələ aydındı mənə
Gözünün əksini düşcək,
Nəyə bənzətmək olur?
Para bir mübhəm ömürdür

O sınıq aynada mən səni gördüm
Calanan qara könlü

Su ilə yel arasında
Deyəsən oynaq olub!

## ZAHİD QURTAR ZÜHDÜ

Zahid qurtar zühdü
Insan san axır!
Duzəxdə inan billah
Vulkan olusan axır

Anlında nişan bir söz
Məcmərdən alıb dərsin!
Başdan ətəgə billah
Üsyan olusan axır

Zahid qurtar zühdü
Insan san axir
Xalqın nəzəri,əhli
Irfan olusan axır

Qəlbim döyünür vallah
Qışqırtı salıb billah
Oldun mütəkəbbir birdə
Min rəngə dönüb,dandın
Rişən baş açıb küfrdən
Şeytandan alıb dərsin

Yerdə tökülür qanlar
Həqlər alınır burda
Canlar dayanır zahid
Dərd əhlinə oldun dərd
Yorğun sinəmə,hərdəm

Peykan olusan axir
Kəştiyi nəbi nuha
Tufan olusan axır

Hükmi əzəli dandın
Şeytan sözünü andın
Aldandı sənə məxluq
Bağlandı səfi tüğyan

Xaliq deyilsən billah
Məxluq deyilsən vallah!
Bu gərdişi dövranda
Mehmansan sən axır
Qəbrin gecəsi peşman
Nalan olusan axır
Bərzəxdədə sərgərdan
Heyran olusan axır
Məhşərdə inan zahid
Giryan olusan axır

Səbr eylə könül,səbr et
Qan ağlama heç səbr et
Ver dil nəzər əhlinə
Müstöcibi ğüfran ol
Axır ki ***pəkər*** səndə
Şərm et bir insan ol

**ODA GETDİ**

Umudum tək ona getdi
Oda getdi...

Ğəminə susqun,
Toxudum xatirələrdən gəmi bir
Saldım ən könlümə üzsün
Sürdüm ol dalğalarla
Üşüdüm gecələrlə
Titrədim hicrilərlə
Hər ada axtardıqca
batdım ol bəhridə artıq

burda bir insan görüşmür
ola bir dəm,
dərdə dərman,sırra sandıq
gülə hər dəm
basıra ğəmlərdən hiç

burda bir insan görüşmür
bağlana ürəgim ona bir dəm
dayanam kölgəsinə
unudam ğəmlərimi

denə zahid nədi tə”birin,eşqdən
nə gördün məcnunu,
nə eşitdün leylidən?

Bunu bil eşq bir dağdır
Gözü vülkan
Sözü sazdır

Olar ol aşiqə qismət
Calanar şoq ilə düzgün
Yandırar şö''lələri
Kül edər aşiqi bir dəm
Basar ol bağrına,zahid
Aşıqın tozlarını tapşırar yellərə birdə
Pülər ol dağlara əmma
Qarışar ol yel ilə
Baş çəkər hər yerə bir an
Sızlayar hər gecə gündüz
Çığırar hu,hu,

Ama otdan bizə qismət,közüdür köz
Birdə tüstü qalacaxdır
Baş çürür torpaqda
Üzümüzdə qaralıqdı qalacaqdır

Bunu bul eşq ələ gəlməz
Hələ dir ki gözə gəlməz
Sözə gəlməz

Bil ki könlün sığılankən
Alışib yanar olsan
Yeldəki küllərilə
Qarışıb,Səndə uçarsan

## OD VURUB BİR SIĞARA YANDIRARSIZ ÜRƏGİM

Hələ aydındı mənə
O qaranlıq çüçələr
Ayın altinda gəzərduq
Dolanarduq

Saz olarduq yağışın damcısina
Dayanıb daldalanarduq rəfiqin sayasına
Ulaşarduq ucadan dərdimizin çarasina
Nə deyim da...
bir olarduq,
alışardıq bir sığara

gözümüzlə güdərdik cüməni
gah dolub gah açılardıq
ağlayardıq
gah yuyardıq sinəni

hələ aydındı mənə
gecələr,
itgin gəncliklər
quylanan xatirələr,
düzülür ən gözümə

ama sizlər,
gələcəksiz bilirəm
geçəcəksiz çüçələrlə
yandırıb bir sığara söndürərsiz dosluğu

yada şayəd,
əsilən əllər ilə qopararsız qəbrimin bicəklərin

söyləyərsiz sovti tohid
tutulan könlüm açarsız

od vurub bir sığara yandırarsız ürəgim
titrəyən gözlər ilə
yuyasız ən məzarım

## EY VAY Kİ SAĞKƏN QAPIMIZ HİÇ DÖYÜLMÜR

Ey vay ki sağkən qapımız hiç döyülmür
Gözümüz yolda olankən,kimsə görünmür
Könlümüz şad olalı ya ki söyünmür

Indi əğyar olub yar
Gəlir hər gün
Verir azar qəlbimi hərdəm
Döyür ol qəbrimi artıq!

**SİMİT SUTUNLAR DA SÖKÜLƏRMİŞ**

Itgin arzıları son günlərimdə axtarırdım
Yeridikcə dağı qaldı ürəgimdə
Bilməzidim hər qıç atdıqca quylanırlar bir bə bir
-ürəgimdəki arzılarım-yanırlar bir bə bir

Bir cüt parlaq ulduz
Ağa-qaraya bir gözdə baxan gözlər
Bir aydın ayna
Yaxçılıqı hamı üçün bir göstərən ürəgim
Bir tərli ğünçə
əyriyə caymıyan ağız

bir cüt başıma pambiq çəkilən əllər
qabağıma gündəki çıxan gülüşlər

dalımdaki görsənmıyən dayağım
simitdən yerə yapışan ayaqlar

bəs caydığım nədən imiş
nə içün oldu bu axtarmağım

son günləri eşitmişdim
qocalan dillərdən
ağaran saçlardan
eşitmişdim
quruyan dodaqlardan
bükülən bellərdən
arzımı onda görmüşdüm

bu gün o gündü
iki sönən ulduz
ömrünü geçirən
hər yerə cayan
ağa-qaraya,qara baxan gözlərim

bir paslı ayna
sınmış,dağılmış

iki qurulmuş dodaq
bir birindən küsülən
verdıkləri səs,əbəs ahdır

son günlərimi o tikanlı əllərdən bildim
hələdəki başıma çəkilirlər
ama gülüşsüz

bəs caydığım nədən imiş
bu axtarmaqdan
gec bildim ki arzılarımla olmuşdum
yeridikcə qabağa,quyluyurdum bir bə bir
-Arzılarımı-yandırırdım

Dalımdaki ayaqları həmişəlik bilirdim
Yıxılmıyan dayaq
Ama son günlərdən öyrəndim
Simit sutunlarda sökülərmiş!

**BU IŞIQ ÇOPU DƏ BƏNİM AĞZIMDA ÇOX GÖR!**

Bu gözükölgəli adam bənəm
Adamcığaz,
Acıdil,

Axsar qıçımın gup-gupu qarışıb ürəgimin son çalışına
Dinməz dilimin vərindən çağırır,
Getmə, geri dön

Ürəgimin gurultusu gurlanıb,
Bir ağır qurşaddan xəbər verir

Daha bundan artıq gözləşmək olmaz
Utanmaqdan da usanıram
Yorğün könlümdə güc qalmayıb
Bu güclü istəklərlə güləşmək olmur

Acıqlı gözlərin ürəgimi gülləyə bağlayıb
Ürəgimin gurultusu ilə qarışıb
Bir ağır qurşaddan xəbər verir

Ax…,
Gecələrimin sahibi gedir
Dərdlərimi yenə toz basacaq
Könlüm yenidən örənlik olacaq

Daha sənsiz axşamlamaq olmaz
Ağzımdaki çubuq alışmaz

Əlim bu yanar çoplərə dönməz
Döncək,səs gələr,çur!

Get!bəni bu çuxur yolda tək qoy,
Bu ışıq çopu də bənim ağzımda çox gör!

Deyərsən gedərgin olubsan,
Get, bu dağılmış ürəgimin parçalarında sana bir yer olur
Get…!
Ürəgimin gurultusu gurlanıb,
Bir ağır qurşaddan xəbər verir

**ƏCƏLDƏN,BİRCƏ GÜLÜŞÜVƏ MÖHLƏT ALMIŞAM**

Üzaqlardan nə baxırsan yalandan!
Bən doğrudan sana vurulmuşam
Bu dolğun sözlərimdən nə bilirsən!
Bən yalan isə doğru arasında dolaşmışam

Bu,könlümün isaq-musaq quşudur,
Nə yaz,nə yay,
Gec ilə gündüzümə qarışıb,
Yas ilə qışıma
Səsi,bənim geçitdigim ağlatı nağıllarıdır

Üzaqlardan nə baxirsan özgə sayaqı
Acıqlı gözlərin bu son nəfəslərimə acı bir ağı alışdırır
Qanıma qarışır acı baxışların,
Əcəl yelin  gücləndirir,
Artıqlı titrədir könlümün saralmış yarpaqların

Əh...

Ancaq,and olsun sənlik ilə andaca
Saçlarıvın bircə telinə dayanmışam
Acıqlanma məndən,
Əcəldən,bircə gülüşüvə möhlət almışam

**BU CƏHƏNNƏMDƏN GƏLİBDİ!**

Sancılarımın ötüşü ölümümdən xəbər verdi
Bir ağır qışqırtı,köçməgimi bilindirdi

Soyuq cismim yer ilə göy arasında,
Yar-yoldaş çiynində sürünürdü
-Dirilikdəkən bele imiş-

Gözüm düşcək o dərin sinə,
Uca bir ağlatı qalxındı
O tay və bu tay arasında mat-mat,uyqulu,baxırdım
Sayğılı bəni sinə düşürtdülər
...Və getdilər!
Bəni bu soyuq sin ilə boşladılar,və getdilər

Azan səsi ilə qalxırdım ayaqa
Başım dəycək sinimin daşına,oyandım yenidən
Bildim daha əlim qısalıb dünyadan
Daha qıldıqlarım bəni görər!

Ağır bir gup-gup səs ilə  oyandım
iki uca başım üstə,
Əllərində bir odlu gürz,

Birisi sordu :rəbbin kimsədir,
Macalım yoxmuş,demə bəs
Obirsi Bir ağır gürz əndirdi bənə sarı

Kitabın nədir?
...
dinməməzligim odları sində artıqlı alışdırırdı

İmmm...
Bir körpə gibi dil açmaqa başlayırdım,
Ama anam gülüşü vərindən başima od yağırdı,
Heç eləbir bənim dilim yoxumuş

Bən...,
Bən...,
Bən cəhənnəmdən gəlmişəm!,
Ağzımdan caydığım söz oldu
Və bir odlu gürz ilə uydum

Oyanankən əlim-qolum bağlı,
özümü bir ğul gördüm
süründürürdülər od dərəsinə,
bu qapıdan girənin qayıtmağı mahalimiş,

qapı ağzında qıçlarım qurudu,
heç da odlu gürzlərdə onları yeridənmirdi
son dəfəlikdə geri döndüm,
gözlərim doldu,
heç ürəgimdəki yaralarım toxtamamış,cismimi yandırırlar!

Umudum kəsilənkən,
Bir səs ilə canım titrədi,
tanrımım səsi:
ötürün bunu,
Bu cəhənnəmdən gəlibdi!

***Təbriz***
***1387***

***Bu kitab replace olmamaq üçün saytıda, adı dəgişildi***